# Strateji tərəfdaşlar, dost ölkələr

## Azərbaycan-Serbiya əlaqələri intensiv şəkildə inkişaf edir

**Azərbaycan və Serbiya əlaqələri diplomatik münasibətlər baxımından 1997-ci ildən başlayıb. Xüsusilə iki dövlət arasında 2011-2012-ci illərdə daha intensiv əlaqələr formalaşıb, münasibətlər həm iqtisadi, həm diplomatik, həm də digər sahələrdə artan dinamika üzrə inkişaf edib.**



Milli Məclisin deputatı Arzuxan Əlizadə qəzetimizə açıqlamasında bildirib ki, iki ölkə arasında münasibətlər artıq strateji tərəfdaşlıq səviyyəsindədir. Bu dövr ərzində ölkələrimiz arasında 57 sənəd imzalanıb. "Strateji tərəfdaşlıqla bağlı hökumətlərarası komissiya iş aparıb, bir çox sahə üzrə ikitərəfli və çoxtərəfli müqavilələr imzalanıb. Prezident İlham Əliyevin Serbiyaya səfəri çərçivəsində də Strateji Tərəfdaşlıq Şurasının 1-ci iclası keçirilib və görüşdə bir çox məsələ müzakirə olunub. Prezident İlham Əliyev və Aleksandar Vuçiç həm təkbətək, həm də geniş tərkibdə görüşlərdə ölkələr arasında münasibətləri diqqətə çəkməklə yanaşı, gələcəkdə həyata keçiriləcək layihələrlə bağlı da fikirlərini bildiriblər", - deyə o bildirib.

Azərbaycanın Serbiyaya qaz tədarük etdiyini xatırladan deputat deyib ki, ixrac olunan mavi qazın həcmi bir az da artırılacaq. Serbiyaya nəql olunan qazdan elektrik enerjisi istehsalına sərf olunacağı barədə qərara gəlinib. Bununla da münasibətlər yeni mərhələyə qədəm qoyacaq. Digər sahələrdə də iki ölkə arasında əlaqələrin daha yüksək səviyyəyə qaldırılması planlaşdırılır.

A.Əlizadə qeyd edib ki, Serbiya-Azərbaycan münasibətləri təkcə iqtisadi deyil, mədəni və digər sahələrdə də inkişaf etməkdədir: "İki dövlət arasında yalnız strateji müttəfiqlik deyil, eyni zamanda dostluq münasibətləri də formalaşıb. Bunun özəyində Prezident İlham Əliyev və Prezident Aleksandar Vuçiçin şəxsi dostluq münasibətləri xüsusi rol oynayır. Serbiya Prezidenti mətbuata bəyanatında xüsusi olaraq qeyd etdi ki, Azərbaycan Prezidentinin siyasi təcrübəsindən yararlanır".

Deputat vurğulayıb ki, Azərbaycan-Serbiya münasibətləri gələcəkdə daha yüksək səviyyədə inkişaf etdiriləcək. Bu, təbii ki, həm Azərbaycan, həm də Serbiya üçün iqtisadi və digər sahələrdə inkişaf baxımından xüsusi əhəmiyyət daşıyır. Xatırladaq ki, iki ölkə arasında əlaqələr əvvəlki dövrdə də yüksək səviyyədə olub. Bütövlükdə bu əlaqələr gələcəkdə hər iki dövlətin müxtəlif sahələrdə dividendlər əldə etməsinə vəsilə olacaq".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2026.- 17 fevral (№ 30).- S.10.